Avropa İttifaqı
tərəfindən maliyyələşdirilir

# (Aİ Gender Bərabərliyi Naminə) İSLAHATA DƏSTƏK XİDMƏTİ



## Aİ GENDER BƏRABƏRLİYİ NAMİNƏ İSLAHATA DƏSTƏK XİDMƏTİ (2021–2022)

# AZƏRBAYCAN

## Aİ GENDER BƏRABƏRLİYİ NAMİNƏ İSLAHATA DƏSTƏK XİDMƏTİ NƏDİR?

Aİ Gender Bərabərliyi Naminə İslahata Dəstək Xidməti gender məsələlərinin yeni qanun, strategiya, proqram və sənədlərə daxil edilməsi üçün Şərq Qonşuluğu ölkələrindəki Aİ nümayəndəliklərinə və hökumətlərə tələb əsasında yardım təmin edir. Bu xidmət həm qadınlar, həm də kişilər üçün effektiv nəticələrin təmin edilməsini dəstəkləyir.

## 1. TEXNİKİ SƏRİŞTƏ VƏ MƏSLƏHƏT YARDIMI

Gender məsələlərinin Aİ nümayəndəlik sənədlərinə tətbiqi:

- Avropa İttifaqının 2021–2025-ci illəri əhatə edən III Gender Fəaliyyət Planının (GAP III) ölkə səviyyəsində icra planında (CLIP) genderin əsas axına çevrilməsi

## 2. POTENSİALIN ARTIRILMASI FƏALİYYƏTLƏRİ

Dövlət qulluqçularının (qadınların və kişilərin) genderə kompleks yanaşma potensialının və bacarıqlarının artırılması üçün təlimlər və seminarlar:

- İslahata dəstək xidmətinin Azərbaycandakı fəaliyyətləri nəticəsində ümumilikdə 195 dövlət qulluqçusuna (167 qadın, 28 kişi) təlim keçirilib.
- Genderə-həssas idarəetmə mövzusunda onlayn təlim, 6–8 Aprel 2022 (18 iştirakçı – 15 qadın, 3 kişi)
- Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası və Penitensiar Xidmət üçün genderə-həssas həbsxana idarəçiliyi mövzusunda onlayn təlimçilərin təlimi, 27-29 aprel 2022 (10 iştirakçı - 8 qadın və 2 kişi)
- Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin müraciəti əsasında gender bərabərliyi anlayışları, qlobal, regional və milli səviyyələrdə siyasətlər, eləcə də gender bərabərliyi komissiyalarının üzvlərinin rol və öhdəlikləri ilə əlaqədar potensialın gücləndirilməsi məqsədilə "Azərbaycan bələdiyyələrində gender bərabərliyi komissiyaları üçün gender bərabərliyi və yerli idarəetmə" mövzusunda oflayn potensialın artırılması təlimi, 4-5 oktyabr 2022 (24 iştirakçı - hamısı qadın)
- Nazirliklərin və dövlət komitələrinin Genderə Məsul Şəxsləri üçün genderə kompleks yanaşma alətləri, eləcə də gender bərabərliyinin təşviqi məqsədilə idarələrarası geniş öhdəlik şəbəkəsinin formalaşdırılması ilə gender bərabərliyi siyasətinin müəyyənləşdirilməsində və icrasında Genderə Məsul Şəxslərin rol və öhdəlikləri ilə bağlı bacarıqların artırılmasına yönəlmiş oflayn təlim, 25-27 oktyabr 2022 (68 iştirakçı - 65 qadın və 3 kişi)
- İqtisadiyyat Nazirliyi və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi üçün BMT-nin Qadın Agentliyi və BMT Qlobal Təşəbbüs Proqramının Qadınların Səlahiyyətlərinin Artırılması Prinsipləri, gender bərabərliyinin təbliğində özəl sektorun rolu, genderə-həssas rəqəmsal iqtisadiyyat, formal və qeyri-formal iqtisadiyyat eləcə də qadınların iqtisadi gücləndirilməsi üçün hökumət fəaliyyətlərinin formalaşdırılması üzrə bacarıqların artırılması məqsədilə qadınların iqtisadi gücləndirilməsinə dair təlim (21 iştirakçı – 19 qadın və 2 kişi), 22-23 noyabr 2022
- Yerli icra hakimiyyəti orqanlarının Genderə Məsul Şəxsləri üçün gender bərabərliyi siyasətinin icrasında Genderə Məsul Şəxslərin institusional mexanizm kimi rol və öhdəlikləri mövzusunda oflayn təlimlər, 28-29 noyabr, 15-16 və 19-20 dekabr 2022 (82 iştirakçı - 59 qadın və 23 kişi)

Bu nəşr Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanıb. Nəşrdəki məlumatlar Avropa İttifaqının rəsmi mövqeyini əks etdirmir və məzmuna görə tam məsuliyyəti Niras daşıyır.

İcraçı
NIRAS

- Məişət zorakılığından zərər çəkən həssas qrupdan olan şəxslərin qorunması mövzusunda konfrans, 7 dekabr 2022 (43 iştirakçı - 30 qadın və 13 kişi)
- Vətəndaş cəmiyyəti təşkilatları ilə Gender Fəaliyyət Planının Ölkə səviyyəsində İcra Planı ilə əlaqədar məsləhətləşmələr, 29 noyabr 2021 (24 iştirakçı)
- Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sosial Xidmətlər Agentliyinin nümayəndəsi üçün məişət zorakılığı hallarının idarə edilməsi prosedurları ilə əlaqəli konsultasiya görüşü və mentorluq dəstəyi, 8-9 iyun 2022 (1 qadın iştirakçı)

## 3. İSLAHATLARIN ŞƏRQ TƏRƏFDAŞLIĞI ÖLKƏLƏRİNDƏ QADINLARA VƏ KİŞİLƏRƏ TƏSİRİNƏ DAİR DƏLİL BAZASI

Aİ Gender Bərabərliyi Naminə İslahata Dəstək Xidməti tərəfindən hazırlanan bilik məhsulları:

- Azərbaycanın ölkə üzrə gender profili
- Məişət zorakılığından zərər çəkmiş yaşlı insanlar və əlilliyi olan şəxslər üçün xüsusi dəstək proqramlarının icrası üçün tövsiyələr
- Məişət zorakılığı hallarının idarə edilməsi üçün təlimatlar
- Təlimçilər üçün həbsxanaların idarə edilməsi, qadın məhbuslarla rəftar üzrə beynəlxalq standartlar, qadın məhbusların reabilitasiyası və cəmiyyətə təkrar inteqrasiyası üzrə beynəlxalq standartlara dair bələdçi

İslahata Dəstək Xidmətinin gender bərabərliyi kitabxanasına daxil edilmiş, Azərbaycanla əlaqəli nəşrlərin əhatə etdiyi sahələr:

- COVID-19-un qadın və kişilərə təsiri
- Qadınlara qarşı zorakılıq
- Genderə Kompleks Yanaşma
- Genderə-həssas siyasətlər və layihələr
- Genderə-həssas dövlət maliyyə idarəetməsi
- Ölkə üzrə gender qiymətləndirməsi
- Gender bərabərliyi və gender münasibətləri
- Potensialın qiymətləndirilməsi

## BENEFİSİARLARIMIZIN SÖZLƏRİ

"Bu təlim məni genderə məsul şəxslərin işi ilə əlaqəli müvafiq alətlər və göstəricilərlə tanış etdi. Bu mənə işimi sistemləşdirməkdə, ardıcıllığı təmin etməkdə yardım edəcək."

– Gövhər Mammadova, Neftçala yerli icra hakimiyyəti orqanında Genderə Məsul Şəxs

"Təlim həm nəzəri, həm də praktiki səciyyə daşıyırdı. Hazırda bərabər hüquqlar, gender münasibətləri və gender kimliyi haqqında biliklərimi artırmışam. Bu təlim məni stereotiplərdən xilas etdi. Gender rollarının düzgün təbliğ edilməli olduğunu anladım. Bələdiyyənin bütün üzvlərinin bu mövzuda məlumatlandırılması və işlərinin əlaqələndirilməsi ailə, təşkilat, siyasət və iqtisadiyyat sahələrində bütün münasibətlərə təsir edə bilər."

– Nərgiz Əbdürrəhmanova, Bibiheybat bələdiyyəsi, Gender Bərabərliyi Komissiyasının üzvü

"Təlimdə qazandığım bilik və məlumatları iş yoldaşlarımla bölüşəcəyəm. Eyni zamanda komissiyamız sosial məsələlərlə məşğul olduğuna görə, bu məlumatı daha geniş auditoriya arasında, məsələn, məktəblərdə yayacağam. Bələdiyyələrdə gender bərabərliyi komissiyalarının inkişafına dəstək göstərmək üçün çalışacağam. Gender anlayışlarının hər bir sahədə - büdcə, bələdiyyələrin səlahiyyətləri sahəsində mövcud olduğunu başa düşdüm. Buna görə də hər bir bələdiyyədə bu məsələ üzərində çalışa bilərik."

– Leyli Tahirova, Rəsulzadə Bələdiyyəsi, Gender Bərabərliyi Komissiyasının üzvü

## FAYDALI KEÇİDLƏR

- Aİ Gender Bərabərliyi naminə İslahata Dəstək Xidmətinin layihə səhifəsi
- Gender Bərabərliyi Kitabxanası
- Aİ Şərq qonşuları: Azərbaycan (ingilis dilində)
- Aİ Şərq qonşuları: Azərbaycan (Azərbaycan dilində)

GENDER BƏRABƏRLİYİ KİTABXANASINA NƏZƏR SALIN